

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

10 iyul 2026-cı il
Cümə

1933-cü ildən çıxır
№ 25 (3788)

# Xalqdan güc alan lider



## Prezident İlham Əliyevin fəaliyyətində milli maraqlar əsas prinsipdir

*Son ictimai rəy sorğularında qeydə alınan yüksək göstəricilər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursa cəmiyyətin verdiyi dəstəyin və dövlət idarəçiliyinə olan inamın ifadəsi kimi dəyərləndirilir.*

Müasir dövrdə siyasi liderə göstərilən ictimai etimad dövlət idarəçiliyinin səmərəliliyini əks etdirən ən mühüm göstəricilərdən sayılır. Azərbaycanda keçirilmiş son ictimai rəy sorğusu da Prezident İlham Əliyevin fəaliyyətinə cəmiyyət tərəfindən yüksək dəstəyin davam etdiyini göstərir. Sorğunun nəticələrinə əsasən respondentlərin 87,7 faizi dövlət başçısına etimad göstərdiyini bildirib, 93,6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirib, 81,9 faizi isə İlham Əliyevi alternativsiz siyasi lider hesab etdiyini ifadə edib.

Heç şübhəsiz, ictimai dəstəyin əsas səbəblərindən biri Prezident İlham Əliyevin fəaliyyətində milli maraqların əsas prinsip kimi qorunmasıdır. Dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, təhlükəsizliyinin təmin edilməsinə, sabitliyin qorunmasına və vətəndaşların rifahının yüksəldilməsinə xidmət edir. Dünyada geosiyasi gərginliyin artdığı, beynəlxalq münasibətlərdə yeni çağırışların meydana çıxdığı bir şəraitdə Azərbaycanın milli maraqlarının qətiyyətlə müdafiə olunması cəmiyyətdə inamı daha da gücləndirib.

Prezident İlham Əliyevin idarəçilik üslubunun mühüm xüsusiyyətlərindən biri xalqla davamlı ünsiyyətə üstünlük verməsi və qəbul edilən qərarlarda vətəndaşların gözləntilərini nəzərə almasıdır. Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, onun əsas dayağı Azərbaycan xalqıdır. Qarşılıqlı etimad üzərində qurulan bu münasibət ölkədə ictimai sabitliyin və milli həmrəyliyin möhkəmlənməsində əsas rol oynayır.

Azərbaycanın beynəlxalq nüfuzunun artması da ictimai etimadı möhkəmləndirən əsas amillərdəndir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən xarici siyasət nəticəsində ölkəmiz regional və beynəlxalq proseslərin fəal iştirakçısına çevrilib. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, çoxtərəfli əməkdaşlıq və balanslaşdırılmış diplomatiya Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirib.

Sosial-iqtisadi inkişaf da cəmiyyətin dövlət siyasətinə verdiyi dəstəyin əsas səbəblərindəndir. Son illərdə müasir infrastrukturun yaradılması, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, qeyri neft sektorunun inkişafı, enerji təhlükəsizliyinin təmin olunması və regionların davamlı inkişafı Azərbaycanın iqtisadi potensialını ilbəil artırmaqdadır.

Prezident İlham Əliyevə yüksək ictimai etimadı möhkəmləndirən ən mühüm hadisə isə 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə oldu.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, sonrakı mərhələdə isə dövlət suverenliyi ölkənin bütün ərazisində tam təmin olundu. Bu Zəfər milli birliyin, güclü siyasi iradənin və məqsədyönlü dövlət siyasətinin nəticəsi kimi tarixə yazıldı.

Hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan böyük quruculuq prosesi də Prezidentin şəxsi nəzarətindədir. Prezident İlham Əliyev Qarabağı yenidən həyata qaytarır.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası

## Cari ilin 6 ayının yekunları müzakirə olunub

İyulun 9-da Daxili İşlər Nazirliyində 2026-cı ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələrini layiqincə yerinə yetirdiyini bildirib.

*(Ardı 2-ci səhifədə)*

# Nazir vətəndaş qəbulu keçirib

## Sıra baxışında 227 gənc seçim turunun növbəti mərhələsinə buraxılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 6-da və 7-də Lerik rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Lerik rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

*(Ardı 2-ci səhifədə)*

# Əhali siyahıya alınacaq

## Prezident fərman imzalayıb

2029-cu ildə Azərbaycanda əhalinin siyahıyaalınması həyata keçiriləcək.

Bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb. Fərman Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildikdən sonra ilk dəfə ölkənin bütün ərazisi üzrə əhaliyə dair müfəssəl məlumatların əldə edilməsi və sosial-demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə imzalanıb.

Ölkədə siyahıyaalınma 2029-cu ilin oktyabrın 1-dən 31-dək keçiriləcək.

# Münasibətlərdə qarşılıqlı etimad var

## Prezident senatoru qəbul edib

Prezident İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.

Söhbət zamanı Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayıb.

# Möhkəmlənən qardaşlıq

## Səmərəli əməkdaşlıq qurulub

Prezident İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib. Qəbulda bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Trampa təbrik məktubu

## Münasibətlər məmnunluq doğurur

“Son dövrdə Azərbaycan-Birləşmiş Ştatları münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur”.

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Prezident Donald Trampa ABŞ-nin müstəqilliyinin 250-ci ildönümü münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb.

“Keçən ilin avqustun 8-də Ağ Evdə Sizin təşəbbüsünüzlə baş tutmuş tarixi üçtərəfli görüşün nəticələri regionumuzda tamamilə yeni müsbət ab-hava və vəziyyət yaratdı”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Hava limanı peşəkarlara əmanətdir 3



Piyada məsuliyyəti 3




İlk polis avtomobilləri necə olub? 4



Süni intellektin məhkəmədə ilk qələbəsi 4



# Respublika Xəbərləri

### Paytaxtda ödənişsiz nəqliyyat

Bakının mərkəzi piyada zonalarında ödənişsiz şatl xidmətləri istifadəyə verilib. Şatllar nəqliyyatın hərəkətinin məhdudlaşdırıldığı ərazilərdə ictimai iaşə obyektlərinə, istirahət məkanlarına və parklanma yerlərinə gediş-gəlişi asanlaşdıracaq. Mikroavtobuslar həftəsonları və bayram günləri 7–10 dəqiqə intervalla fəaliyyət göstərəcək.

### Bakı–Tbilisi qatarında əlavə yerlər açılır

Bakı–Tbilisi–Bakı marşrutu üzrə əlavə yerlər açılır. Hər reys üzrə 104 əlavə sərnişin yeri açılacaq və bir reys üzrə sərnişin yeri hazırkı 178-dən təqribən 60 faiz artaraq 282-yə çatdırılacaq.

### Sənaye istehsalı artıb

Bu ilin yanvar-may aylarında Bakıda sənaye məhsullarının istehsalı və göstərilən xidmətlərin həcmi 21,9 milyard manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 faiz artıb. İstehsalın əsas hissəsi mədənçıxarma və emal sənayesinin payına düşüb. Sənayedə qeyri-dövlət sektorunun payı 82,7 faiz olub.

### Beynəlxalq təlim başa çatıb

Türkiyənin Konya şəhərində Azərbaycan, Misir və Türkiyənin iştirakı ilə keçirilən "Anadolu Qartalı – 2026" beynəlxalq taktiki-uçuş təlimi başa çatıb. Təlimdə iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş və texniki heyəti, eləcə də Su-25 hücum təyyarələri Vətənə qayıdıb. Təlim zamanı Azərbaycan hərbçilərinin peşəkarlığı və birgə tapşırıqların icrası yüksək qiymətləndirilib.

### Şükürbəyliyə növbəti köç

“Böyük Qayıdış” proqramı çərçivəsində Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç həyata keçirilib. Bu mərhələdə 46 ailə olmaqla 223 nəfər doğma yurduna qayıdıb. Sakinlərə mənzillərinin açarları təqdim olunub.

### Üç şəhərdə "Sağlam məhəllə" açılıb

"Sağlam məhəllə" layihəsi çərçivəsində Naftalan, Samux və Mingəçevirdə yeni idman zonaları istifadəyə verilib. Ərazilərdə minifutbol və basketbol meydançaları, stolüstü tennis, şahmat və trenajor avadanlıqları quraşdırılıb.

### Qeyri-neft ixracı artır

2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyard manatlıq məhsul istehsal olunduğu halda, 2025-ci ildə bu göstərici 81,8 milyard manat təşkil edib. Bu sahədə artım tendensiyası 2026-cı ilin ilk 5 ayında da müşahidə olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-may aylarında Azərbaycanda 35 milyard 658,4 milyon manatlıq qeyri-neft məhsulları ixrac olunub.

### Qarabağda yarımstansiyalar yenilənib

Xankəndi şəhərində 110/35/10 kV-luq “Xankəndi-2” və Ağdərə rayonunda 110/35/10 kV-luq “Həsənriz” yarımstansiyaları ən müasir rəqəmsal texnologiyalar əsasında yenidən inşa edilir. “Xankəndi-2” Xankəndi şəhərinin, ətraf yaşayış məntəqələrinin və bütün mühüm infrastruktur obyektlərinin daha etibarlı, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatına imkan verəcək.

### Azərbaycan investisiyada birincidir

Azərbaycan nəqliyyat infrastrukturuna yatırılan investisiyaların ÜDM-də payına görə 32 ölkə arasında birinci yerdə qərarlaşıb. 2022–2024-cü illərdə bu göstərici orta hesabla 3,5 faiz təşkil edib və son on ildə nəqliyyat infrastrukturuna yatırımların davamlı artdığı qeyd olunub.

### Naxçıvan yaşıl enerji ilə təmin olunub

Naxçıvan Muxtar Respublikasında aprelin 21-dən iyulun 2-dək elektrik enerjisinə olan tələbat tamamilə bərpaolunan enerji mənbələri hesabına ödənilib. Bu müddətdə su və günəş elektrik stansiyalarında ümumilikdə 118,4 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

### Xankəndi Bəyannaməsi qəbul edilib

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş “Türk Dünyası Həftəsi” çərçivəsində tədbir iştirakçıları elm, təhsil, dil, mədəniyyət və ortaq tarixi irsin qorunması sahələrində türk dövlətləri arasında əməkdaşlığın inkişaf istiqamətlərini özündə əks etdirən Xankəndi Bəyannaməsini hazırlayaraq yekdilliklə qəbul ediblər.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası

## Cari ilin 6 ayının yekunları müzakirə olunub

*(Əvvəli 1-ci səhifədə)*





Beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin etibarlı təmin olunduğunu, qanunla müəyyən edilmiş funksiyaların digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıqla icra edildiyini vurğulayıb. Qarşıda mühüm vəzifələrin dayandığını da diqqətə çatdıraraq onların ətraflı müzakirəsinin, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi məqsədilə əlavə təşkilati tədbirlərin müəyyənləşdirilib həyata keçirilməsinin vacibliyini qeyd edib.

İclasda hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

### Cinayətlərin 93,9 faizinin üstü açılıb

Hesabat məruzəsində vurğulanıb ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 15.420 cinayət qeydə alınıb və onların 95,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub, 87 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növləri təşkil edib.

2025-ci ilin 6 ayı ilə müqayisədə ümumi cinayətlər 8,6, ağır və xüsusilə ağır cinayətlər 6,5, mülkiyyət əleyhinə olanlar 15,3, onlardan oğurluqlar 11,5, dələduzluqlar 16,8, soyğunçuluqlar 8,8, quldurluqlar 44,2, hədə-qorxu ilə tələb etmələr 10,5, habelə xuliqanlıqlar 12,5, yetkinlik yaşına çatmayanların cinayətləri 15,3, ailə münaqişəsi zəminində törədilənlər 3,5, qrup halında baş verənlər 16,6 faiz, odlu silahın tətbiqi ilə törədilənlər 3 fakt, yol-nəqliyyat hadisələrinin sayı 7,6 faiz, qəzalarda xəsarət alanların sayı 19 faiz, həlak olanların sayı 9 faiz azalıb.

Cinayətlərin açılması 1,1 faiz, qeyri-aşkar şəraitdə törədilənlərin açılması 2,5 faiz, mülkiyyət əleyhinə olanların açılması 4,4 faiz, onlardan oğurluqların açılması 10,7 faiz, dələduzluqların açılması 1,2 faiz yaxşılaşıb, adam oğurluğu və avtonəqliyyat vasitəsinin qaçırılması cinayətlərinin açılması tam təmin edilib.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 93,9 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 218 və görülmüş operativ cavab tədbirləri ilə 3.013 cinayət açılıb, eləcə də 4.474 hüquqazidd əməlin qarşısı alınıb. Müxtəlif cinayətlər törətmiş 6.887 şəxs məhkəmə məsuliyyətinə verilib. İstintaqdan və təhqiqat orqanlarından yayınan 4.282, o cümlədən ağır və xüsusilə ağır cinayətlərə görə 645 təqsirləndirilən şəxs tutulub. Axtarış işinin nəticələri 3 faiz yaxşılaşaraq 82,7 faizə yüksəlib.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 288, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 104 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 70 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Eyni zamanda 3.088 odlu silah, 337 qumbara və 99 mindən çox patron aşkarlanıb.

Qeyri-leqal dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 360 kiloqram çox, yəni 4 ton 318 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 254 tondan artıq çətənə və xaşxaş kolu aşkarlanıb məhv edilib. Bu növ əməllərə görə 41 cinayətkar qrup zərərsizləşdirilib, 2.652 şəxs cinayət məsuliyyətinə cəlb olunub.

### Vətəndaş qəbullarında qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm funksiyaların icrası da davam etdirilərək 3.889 şəxsin qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti öz qanuni həllini tapıb. Nazirliyə daxil olmuş müraciətlər operativ araşdırılaraq hər biri təşəbbüskarların hüquqları izah edilməklə yazılı cavablandırılmışdır.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin, vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və vətəndaş qəbulu işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

# Nazir vətəndaş qəbulu keçirib

## Sıra baxışında 227 gənc seçim turunun növbəti mərhələsinə buraxılıb









*(Əvvəli 1-ci səhifədə)*

Daha sonra Polis Şöbəsinin inzibati binasında Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 348 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov Lənkəran rayonunda polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 227 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Hava limanı peşəkarlara əmanətdir

## Sərnişinlər polisə təşəkkür edirlər



Hər bir ölkənin dünyaya açılan qapısı sayılan hava limanı həmin ölkə haqqında formalaşan ilk təəssüratın əsas ünvanıdır. Heydər Əliyev Beynəlxalq Hava Limanına gələn əcnəbilərin Azərbaycana dair ilk təsəvvürü də məhz burada yaranır. Bu səbəbdən hava limanında təhlükəsizliyin təmin edilməsi, sərnişinlərə operativ və peşəkar xidmət göstərilməsi xüsusi əhəmiyyət daşıyır.

Gün ərzində minlərlə sərnişinə xidmət göstərən Bakı hava limanı onlarla reysin həyata keçirildiyi, böyük həcmdə yük daşımalarının aparıldığı strateji nəqliyyat qovşağıdır. Ötən il burada beynəlxalq və daxili istiqamətlər üzrə ümumilikdə 30 920 reys yerinə yetirilib, bu reyslərlə 7 milyon 639 min 794 sərnişin daşınıb.

Belə intensiv sərnişin axınının olduğu məkanda çanta, mobil telefon, pulqabı, sənədlər və digər qiymətli əşyaların unudulması da qaçılmazdır. Bu hallarda itirilmiş əşyaların qısa müddətdə tapılması, sahiblərinin müəyyən edilərək onlara təhvil verilməsi Hava Nəqliyyatında Polis İdarəsi əməkdaşlarının peşəkarlığının təzahürüdür.

Məlumat üçün qeyd edək ki, cari ilin ilk altı ayı ərzində hava limanında itirilmiş 40 nəfərə məxsus pul, çanta və digər qiymətli əşyalar tapılaraq sahiblərinə qaytarılıb. Onlardan 16-sı xarici, 24-ü isə Azərbaycan vətəndaşı olub.

Polis əməkdaşlarının fəaliyyəti sərnişinlərin ünvanladıqları təşəkkür mesajlarında da öz əksini tapır. Daxili İşlər Nazirliyinin sosial şəbəkə hesabına müraciət edən Xacay Şıxıliyev bildirib ki, iyunun 24-də hava limanında itirdiyi sənədləri, bank kartları və pulqabısı polis əməkdaşlarının operativ fəaliyyəti nəticəsində qısa müddətdə tapılaraq ona qaytarılıb. Ozal İsayev isə iyunun 26-da qardaşına məxsus mobil telefonun hava limanında itdiyini, polisə müraciətdən sonra telefonun tapılaraq ona təhvil verildiyini qeyd edib. Rəşad Əhmədovun təşəkkür məktubu da diqqət çəkir. O, mayın 27-də terminaldan çıxarkən içərisində 1498 ABŞ dolları olan zərfi itirib. Təxminən yarım saat sonra Hava Nəqliyyatında Polis İdarəsinin əməkdaşları zərfi taparaq onunla əlaqə saxlayıb və pulu sahibinə təhvil veriblər.

Bu kimi təşəkkür məktubları kifayət qədərdir. Hər biri hava limanında xidmət aparan polis əməkdaşlarının sərnişinlərin müraciətlərinə həssas yanaşdığını, peşəkar və məsuliyyətlə fəaliyyət göstərdiyini təsdiqləyir. Minlərlə insanın istifadə etdiyi belə strateji nəqliyyat qovşağında itirilmiş əşyaların qısa müddətdə tapılıb sahiblərinə qaytarılması, heç şübhəsiz ki, Hava Nəqliyyatında Polis İdarəsinin səmərəli fəaliyyətinin bariz göstəricisidir.

*Ləman Babayeva*

# Alqışlanan xidmət

## Bir abituriyentin ümidi olan polislər...

Vətəndaşın ən çətin anında onun yanında olmaq polis peşəsinin əsas missiyasıdır. Bəlkə bir neçə dəqiqəlik zaman kəsiyi kiminsə həyatı, taleyi üçün həlledici olur və məhz həmin an polis özünü onun imdadına yetirir. Nərimanov rayonunda şəxsiyyət vəsiqəsini unutmuş şagirdi imtahana vaxtında çatdıran polislər bu peşənin xidməti sərhədlərinin nə qədər geniş şaxəli olduğunu bir daha göstərdilər.

Hadisənin təfərrüatına gəlincə, 34 nömrəli tam orta məktəbdə keçirilən ali məktəblərə qəbul imtahanı zamanı şəxsiyyət vəsiqəsini evdə unutduğunu anlayan şagird çıxılmaz vəziyyətlə üzləşib. İmtahandan kənarda qalmaq təhlükəsi ilə qarşılaşan yeniyetmə kömək üçün məktəbdə xidmət aparan polis əməkdaşlarına müraciət edib.

Nərimanov Rayon Polis İdarəsi PPXB-nin komandir müavini polis baş leytenantı Sərxan Oruclunun sözlərinə görə, hadisə barədə dərhal rəhbərliyə və növbətçi hissəyə məlumat verilib. Qısa müddətdə polis serjantları Səməd Aslanzadə və Nəsir Qasımov şagirdi notariat ofisinə aparıblar. Onun şəxsiyyəti təsdiqləndikdən sonra şagird yenidən imtahan keçirilən məktəbə çatdırılıb. Beləliklə, bəlkə də elə bu imtahanın nəticələrinə görə tələbə adını qazanacaq abituriyent imtahanda iştirak etmək şansını itirməyib.

Hadisənin görüntüləri sosial şəbəkələrdə geniş yayılıb və polisin xidməti təqdirlə qarşılanıb. İstifadəçilər polis əməkdaşlarının operativliyini, həssas yanaşmasını və vətəndaşa göstərdikləri diqqəti yüksək qiymətləndiriblər. Məktəbdə insanların polis əməkdaşlarını alqışlaması isə bu xidmətə verilən ilk ictimai qiymət oldu.

Məktəbdə xidməti vəzifələrini yerinə yetirən polislərin bir şagirdin gələcəyi üçün atdıqları bu addım cəmiyyətə böyük bir mesaj verdi. Onlar göstərdilər ki, polis insanların təhlükəsizliyini qorumaqla yanaşı, onların sevincinə, uğuruna, dar gündə kədərinə şərik olmağı da bacarır.

*Rəşad Mehtiyev*

# Piyada məsuliyyəti

## Qəzaların qarşısının alınmasında piyadaların məsuliyyəti niyə vacibdir?

Ölkənin müxtəlif bölgələrində piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələri barədə xəbərlərlə mütəmadi olaraq rastlaşırıq. Belə hadisələr baş verdikdə diqqət ilk növbədə sürücünün üzərinə yönəlir. Halbuki yol hərəkəti təhlükəsizliyi yalnız sürücünün məsuliyyəti ilə məhdudlaşmır. Yol hərəkətinin tamhüquqlu iştirakçısı olan piyadaların davranışı da təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Böyük şəhərlərdə, xüsusilə intensiv nəqliyyat axınının olduğu küçə və prospektlərdə tez-tez eyni mənzərə müşahidə olunur. Piyada keçidi yaxınlıqda yerləşsə də, bəzi vətəndaşlar yolu birbaşa hərəkət hissəsindən keçməyə çalışır, bəziləri isə telefonla danışaraq və ya qulaqcıqdan istifadə edərək nəqliyyat axınına daxil olur. Bu cür davranışlar təkcə piyadanın öz həyatı üçün deyil, sürücülər və digər hərəkət iştirakçıları üçün də ciddi təhlükə yaradır.




### *Piyadalara çağırış*

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi polisin fəaliyyətinin əsas istiqamətlərindən biridir. Daxili İşlər Nazirliyi tərəfindən mütəmadi olaraq həm sürücülərə, həm də piyadalara müraciətlər edilir, maarifləndirici tədbirlər keçirilir və qaydalara əməl etməyin vacibliyi vətəndaşların diqqətinə çatdırılır. Bu çağırışların əsas məqsədi insanları məsuliyyətsiz davranışları nəticəsində yarana biləcək təhlükələrdən qorumaqdır.

Eyni zamanda, motosiklet və mopedlərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə polis əməkdaşları tərəfindən mütəmadi olaraq nəzarət-profilaktik tədbirlər həyata keçirilir. Tədbirlər zamanı həmin nəqliyyat vasitələrinin sürücülərinə yol hərəkəti qaydalarına ciddi əməl etməyin, məsuliyyətli davranmağın, həm özlərinin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyini nəzərə almağın vacibliyi izah olunur.

Statistik göstəricilər və aparılmış təhlillər göstərir ki, piyadaların iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin əhəmiyyətli hissəsi yolun müəyyən edilməmiş yerlərdən keçilməsi, diqqətsizlik və yol hərəkəti qaydalarının pozulması nəticəsində baş verir. Məhz buna görə də polis əməkdaşları insanların sıx toplaşdığı ərazilərdə, eləcə də intensiv nəqliyyat hərəkətinin müşahidə olunduğu küçə və prospektlərdə profilaktik tədbirlər həyata keçirir, vətəndaşlarla maarifləndirici söhbətlər aparır və onların təhlükəsizliyinin təmin olunması istiqamətində fəaliyyət göstərirlər.

### *Qanunun tələbi*

Hər bir vətəndaş bilməlidir ki, küçə və yollarda hərəkət zamanı səki, piyada yolu və ya yol çiyinindən istifadə edilməlidir. Yollar isə əsasən piyada keçidləri vasitəsilə keçilməlidir. Nizamlanmayan piyada keçidlərində yolu keçməzdən əvvəl piyadalar yaxınlaşan nəqliyyat vasitələrinin sürətini və məsafəsini düzgün qiymətləndirməlidirlər. Piyada keçidinin mövcudluğu sürücünün məsuliyyətini artırsa da, piyadanı diqqətli olmaq öhdəliyindən azad etmir. Qanunvericiliyə əsasən, yolun hərəkət hissəsində lüzumsuz dayanmaq və ya hərəkəti ləngitmək yolverilməzdir. Əgər piyada yolu tam keçə bilməyibsə, əks istiqamətli hərəkət axınlarını ayıran təhlükəsizlik adasında və ya nişanlanma xəttinin üzərində dayanaraq təhlükəsiz şəkildə gözləməlidir. Gecə saatlarında və işıqlandırılmayan ərazilərdə isə daha ehtiyatlı davranmaq vacibdir. Belə hallarda piyadalar yolu yalnız hərəkətin təhlükəsiz olduğuna əmin olduqdan sonra keçməlidirlər.

### *Ortaq məsuliyyət*

Yol hərəkəti təhlükəsizliyi sürücü ilə piyadanın qarşıdurması deyil, onların ortaq məsuliyyətidir. Qaydalara əməl edən sürücü və diqqətli davranan piyada qəzaların qarşısının alınmasına mühüm töhfə verir.

Unutmaq olmaz ki, ani diqqətsizlik ağır nəticələrə səbəb ola bilər. Buna görə də hər bir hərəkət iştirakçısı məsuliyyətli davranmalı, özünün və başqalarının həyatını riskə atmamalıdır. Təhlükəsiz yol hərəkəti mədəniyyəti məhz bu yanaşmadan başlayır.

*Fidan Məmmədova*

# Qanunsuz qazanc həbsə apardı

## Oğruların izi itmədi

Nəsimi rayonunda yerləşən obyektlərin birindən 10 min manat dəyərində elektrik naqillərinin oğurlanması barədə polisə məlumat daxil olub. Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 33 yaşlı T.Əhmədzadə müəyyən edilərək saxlanılıb.

Araşdırmalar zamanı onun oğurladığı elektrik naqillərini metal qəbulu məntəqəsinə satdığı müəyyən olunub.

Həmçinin Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə şəhər ərazisində yerləşən obyektlərin birindən oğurluq etməkdə şübhəli bilinən M.Mütəllimov, T.Yusifov və T.Əliyev saxlanılıblar. Bu şəxslər obyektdən 34000 manat dəyərində mis naqil oğurlayaraq metal qəbulu məntəqələrinə satıblar.

Faktlarla bağlı cinayət işi başlanılıb. Şübhəli şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Zəhər əkib zəhər biçənlər

## Polisin keçirdiyi əməliyyat tədbirləri ilə narkotik tərkibli bitkilərin kultivasiyasında şübhəli bilinən şəxslər saxlanılıblar



Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat keçirilib. Tədbir zamanı narkokuryerlik etməkdə şübhəli bilinən 32 yaşlı E.Mirəliyev və 23 yaşlı V.Kərimov saxlanılıblar. Onlardan ümumilikdə 19 kiloqramdan artıq narkotik vasitə olan marixuana aşkarlanıb. Araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxslər narkotik vasitələri ayrı-ayrı ünvanlara çatdıraraq paytaxt ərazisində qanunsuz dövriyyəsini təşkil etməyi planlaşdırıblar.

Ağsu Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyatlarla isə narkotik tərkibli bitkiləri kultivasiya etməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 51 yaşlı A.Nağıyev saxlanılıb. Onun yaşadığı ünvandan çətənə kolları aşkarlanıb. Saxlanılan şəxs narkotik tərkibli bitkilərə aqrotexniki qaydada xüsusi qulluq göstərdiyini bildirib.

Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyatlar keçirilib. Tədbirlərlə paytaxt ərazisində narkokuryerlik etməkdə şübhəli bilindiyi üçün saxlanılan, əvvəllər məhkum olunmuş 42 yaşlı N.Ağayevdən 23 kiloqrama yaxın marixuana, tiryək və metamfetamin aşkarlanıb. Keçirilən digər əməliyyat zamanı saxlanılan, əvvəllər məhkum olunmuş 48 yaşlı R.Məmmədovdan isə 23 kiloqram 450 qram marixuana aşkarlanıb. Əməliyyatlar nəticəsində ümumilikdə 46 kiloqramdan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən C.Babayev saxlanılıb. Onun yaşadığı ünvana baxış zamanı aqrotexniki qaydada qulluq edilərək yetişdirilən 22 ədəd çətənə kolu və 10 kiloqrama yaxın marixuana aşkarlanıb.

Hər bir faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, "Xaş-xaş-2026" şərti adlı kompleks tədbirlər də davam etdirilir. Lerik RPŞ-nin əməkdaşlarının keçirdiyi tədbirlərlə Orand kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib. Ümumi çəkisi 5200 kiloqram olan 18 700 ədəd xaş-xaş kolu məhv edilib.

# Sürücü həbs edilib

## O, narkotikin təsiri altında olub

Bakı Şəhər BPİ DYPİ-nin əməkdaşları tərəfindən dövlət qeydiyyat nişanı olmayan və çoxavazlı səs siqnalı ilə təchiz edilmiş “Tofaş” markalı, 77-MQ-054 nömrə nişanlı nəqliyyat vasitəsinin sürücüsü T.Əliyev saxlanılıb. Sənədləri yoxlanılan zaman sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin olunub. Müayinə zamanı T.Əliyevin narkotik vasitə qəbul etməsi də müəyyən olunub.

Sürücü barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən inzibati protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə T.Əliyev 30 sutka inzibati qaydada həbs edilib.

# Virtual məkan: həqiqətlər və yalanlar

## İnsanı təqlid edən süni intellekt yeni risklər yaradır

**Bir vaxtlar insanın səsini təqlid etmək və ya onun üzünü başqa videoya köçürmək yalnız peşəkar studiyaların və yüksək texnologiyalara malik mütəxəssislərin görə biləcəyi iş hesab olunurdu. Bu gün isə süni intellekt bu prosesi hər kəs üçün daha əlçatan edib. Artıq internetdə açıq şəkildə təqdim olunan bəzi proqramlar vasitəsilə bir neçə dəqiqə ərzində real görünən saxta video və səs yazıları hazırlamaq mümkündür. Məhz bu texnologiya "deepfake" adı ilə tanınır və son illər kibercinayətkarlığın ən təhlükəli vasitələrindən birinə çevrilməkdədir.**




### ►Həqiqətə bənzəyən saxtakarlıq

"Deepfake" termini ingilis dilindəki "deep learning" (dərin öyrənmə) və "fake" (saxta) sözlərinin birləşməsindən yaranıb. Süni intellekt insanın sosial şəbəkələrdə paylaşdığı fotoşəkilləri, videoları və səs yazılarını təhlil edərək onun danışıq tərzini, mimikasını və üz hərəkətlərini öyrənir. Daha sonra həmin şəxsin heç vaxt demədiyi sözləri demiş, etmədiyi hərəkətləri etmiş kimi göstərən yeni görüntülər yaradır. Ən təhlükəli məqam isə texnologiyanın hər keçən gün daha da təkmilləşməsidir. Əgər ilk nümunələrdə saxtalığı müəyyən etmək mümkün idisə, bu gün hazırlanan bəzi videoları adi izləyicinin ayırd etməsi demək olar ki, mümkünsüzdür. Məhz buna görə dünyanın bir çox ölkəsində hüquq-mühafizə orqanları "deepfake" texnologiyasını gələcəyin ən ciddi kibertəhlükələrindən biri kimi qiymətləndirirlər.

### ►Cinayətkarlar süni intellektdən necə istifadə edirlər?

Son illərdə qeydə alınan faktlar göstərir ki, cinayətkarlar artıq yalnız saxta mesajlar və fişinq keçidləri ilə kifayətlənmirlər. Onlar süni intellektin imkanlarından istifadə edərək insanların etibarını qazanmağa çalışırlar. Müxtəlif ölkələrdə şirkət rəhbərlərinin səsini təqlid etməklə əməkdaşlara külli miqdarda pul köçürtdürən dələduzluq halları qeydə alınıb. Bəzi ailələrə yaxın qohumlarının səsi ilə zəng edilərək guya qəza keçirdikləri və ya polisə düşdükləri bildirilib, təcili pul tələb olunub. Sosial şəbəkələrdə isə tanınmış şəxslərin adından hazırlanmış saxta videolar vasitəsilə investisiya, lotereya və kriptovalyuta vədləri ilə minlərlə insan aldadılır.

Bu cür halların təhlükəli tərəfi ondadır ki, insan eşitdiyi səsə və gördüyü görüntüyə instinktiv olaraq inanmağa meyllidir. Cinayətkarlar da məhz bu psixoloji xüsusiyyətdən istifadə edirlər.

### ►Saxta görüntüləri ayırd etmək niyə çətinləşir?

Texnologiyanın inkişafı ilə saxta məhsulların keyfiyyəti də yüksəlir. Bununla belə, diqqətli izləyici bəzi uyğunsuzluqları hiss edə bilər. Bəzən danışıq zamanı dodaq hərəkətləri səslə tam üst-üstə düşmür, üz ifadələri süni görünür, göz qırpma tezliyi qeyri-təbii olur və ya işıq-kölgə keçidləri videonun digər hissələri ilə uyğunlaşmır. Səs yazılarında isə tonun dəyişməsi, emosiyaların qeyri-təbii səslənməsi və ya vurğuların qəribə eşidilməsi şübhə yarada bilər. Lakin mütəxəssislər hesab edirlər ki, gələcəkdə bu əlamətlərin böyük hissəsi də aradan qalxacaq. Buna görə videonun texniki keyfiyyətindən daha çox onun mənbəyinə diqqət yetirmək vacibdir. Xüsusilə sensasiya xarakterli və insanı dərhal qərar verməyə sövq edən görüntülərlə qarşılaşarkən ehtiyatlı olmaq lazımdır.

### ►Ən güclü silah ayıq olmaqdır

Müasir dövrdə kibertəhlükələrdən qorunmaq təkcə antivirus proqramlarından istifadə etməklə məhdudlaşmır. İnformasiyanı yoxlamaq, emosiyalarla deyil, məntiqlə qərar vermək rəqəmsal təhlükəsizliyin əsas şərtlərindəndir.

Əgər yaxın tanışınızın səsi ilə sizdən təcili pul istənilirsə, ilk növbədə onunla başqa vasitə ilə əlaqə saxlamaq daha doğru addım olar. Sosial şəbəkələrdə yayılan sensasiya yaradan videoları paylaşmazdan əvvəl onların etibarlı mənbələr tərəfindən təsdiqlənib-təsdiqlənmədiyini yoxlamaq da böyük əhəmiyyət daşıyır. Mütəxəssislər şəxsi foto və videoların açıq platformalarda həddindən artıq paylaşılmasının müəyyən risklər yaratdığını bildirirlər. Çünki süni intellekt sistemləri məhz həmin materiallardan istifadə etməklə yeni görüntülər hazırlaya bilir.

### ►Yeni düşüncə tərzi

Süni intellekt həyatın bir çox sahəsinə böyük yeniliklər və rahatlıqlar gətirib. Tibb, təhsil, elm, təhlükəsizlik və digər istiqamətlərdə bu texnologiyanın imkanları hər gün genişlənir. Lakin tarix boyu olduğu kimi, hər yeni texnologiya cinayətkarların da diqqətini cəlb edir. "Deepfake" bunun ən aktual nümunələrindən biridir. İnformasiya əsrində təhlükəsizlik artıq yalnız fiziki mühafizə ilə məhdudlaşmır. İnsanların gördükləri və eşitdikləri məlumatları təhlil etməsi, hər görüntünü həqiqət kimi qəbul etməməsi və rəqəmsal savadlılığını artırması cəmiyyətin təhlükəsizliyinin mühüm tərkib hissəsinə çevrilib. Çünki bəzən bir neçə saniyəlik saxta video minlərlə insanı çaşdıra, böyük maddi zərərə və ciddi ictimai nəticələrə səbəb ola bilər. Bu təhlükə bizə bir həqiqəti xatırladır ki, rəqəmsal dünyada gördüyümüz hər şeyə deyil, təsdiqlənmiş məlumatlara güvənmək lazımdır.

*Aytən Tahirova*

# "Polis xalqdır, xalq isə polisdir"

## İki əsr əvvəl deyilən bu fikir indi də öz aktuallığını qoruyur

Böyük Britaniyada polis peşəsinin banisi kimi tanınan dövlət xadimi Robert Pil 1829-cu ildə London Metropoliten Polis Xidmətini yaradarkən polis fəaliyyətinin fəlsəfəsini bir neçə prinsip üzərində formalaşdırmışdı. Həmin prinsiplərdən biri isə iki əsrə yaxındır ki, dünyanın bir çox polis akademiyalarında öyrədilir: "Polis xalqdır, xalq isə polisdir".

"İlk baxışdan sadə görünən bu fikir əslində polis fəaliyyətinin mahiyyətini ifadə edir. Robert Pil hesab edirdi ki, polis cəmiyyətdən ayrı, onun üzərində dayanan bir qüvvə deyil. Polis cəmiyyətin içindən çıxan, onun təhlükəsizliyi və rifahı üçün xidmət göstərən insanlardan ibarətdir.

XIX əsrin əvvəllərində Avropada hüquq-mühafizə orqanlarına münasibət bugünkü kimi deyildi. Polis daha çox nəzarət və cəza mexanizmi kimi qəbul olunurdu. Robert Pil isə fərqli yanaşma irəli sürərək bildirirdi ki, polisin nüfuzu və təsir gücü zor tətbiqindən deyil, vətəndaşların etimadından qaynaqlanmalıdır. Bu səbəbdən o, polis fəaliyyətinin əsasını təşkil edən doqquz prinsip hazırlamışdı. Həmin prinsiplərin mərkəzində isə cəmiyyətlə polis arasında qarşılıqlı etimad ideyası dayanırdı.

Robert Pilin fikrincə, peşəkar polis fəaliyyətinin əsas göstəricisi çox sayda cinayətkarın saxlanılması deyil, cinayətlərin baş verməsinin qarşısının alınmasıdır. Başqa sözlə, uğurlu polis xidməti təhlükəsiz və sabit cəmiyyət formalaşdıran xidmətdir. Hazırda dünyanın müxtəlif ölkələrində tətbiq olunan "icma polisi", "cəmiyyət yönümlü polis fəaliyyəti" və digər müasir polisçilik modelləri məhz həmin fəlsəfəyə əsaslanır. Məktəblərdə keçirilən maarifləndirmə tədbirləri, sakinlərlə görüşlər, açıq qapı günləri və ictimai layihələr də polis ilə vətəndaş arasında etimadın gücləndirilməsinə xidmət edir.

Aradan təxminən iki əsr keçməsinə baxmayaraq, Robert Pilin ideyaları aktuallığını itirməyib. Çünki təhlükəsizliyin təmin olunması yalnız bütövlükdə cəmiyyətin məsuliyyətidir. Təhlükəsizlik polis və vətəndaş arasında qarşılıqlı hörmətə, əməkdaşlığa və etimada söykənir.

Məhz buna görə də iki əsr əvvəl səsləndirilən "Polis xalqdır, xalq isə polisdir" fikri bu gün də müasir polisçiliyin ən mühüm prinsiplərindən biri hesab olunur.

*A.Tahirova*

# İlk polis avtomobilləri necə olub?

## Tarixi faktlar və texnologiyanın inkişaf yolu

Bu gün polis xidməti müasir patrul avtomobilləri, sürətli rabitə sistemləri və rəqəmsal texnologiyalar olmadan təsəvvür edilmir. Lakin bir əsr əvvəl vəziyyət tamamilə fərqli idi.

İlk polis avtomobilləri sadə görünüşə malik olsa da, hüquq-mühafizə fəaliyyətində əsl dönüş nöqtəsi hesab olunurdu. Onların istifadəyə verilməsi hadisələrə daha operativ reaksiya göstərməyə, patrul xidmətinin əhatə dairəsini genişləndirməyə və ictimai təhlükəsizliyin təminində yeni imkanlar yaratmağa şərait yaratdı.






XX əsrin əvvəllərində xüsusilə "Ford" avtomobil zavodunun istehsalı olan avtomobillər polis xidmətində geniş istifadə edilməyə başladı. Bu, patrul marşrutlarının genişlənməsinə, hadisələrə daha qısa müddətdə reaksiya verilməsinə və cinayətkarlıqla mübarizənin səmərəliliyinin artmasına imkan yaratdı. Artıq polis əməkdaşları daha böyük ərazilərə nəzarət edir, fövqəladə çağırışlara daha operativ çata bilirdilər. Bu dəyişiklik vətəndaşların təhlükəsizlik hissinin möhkəmlənməsinə də müsbət təsir göstərdi.

### *Atlı patrullardan mühərrikli nəqliyyata*

XIX əsrin sonu – XX əsrin əvvəllərində polis əməkdaşları əsasən piyada və ya at belində patrul xidməti aparırdılar. Şəhərlərin böyüməsi və əhalinin sayının artması hadisə yerlərinə daha sürətli çatmağı zəruri edirdi. Məhz bu ehtiyac polis avtomobillərinin meydana çıxmasına təkan verdi. Tarixi mənbələrə görə, ilk polis avtomobillərindən biri 1899-cu ildə ABŞ-ın Akron şəhərində istifadəyə verilmiş elektrik mühərrikli patrul maşını olub. Bu nəqliyyat vasitəsi əsasən saxlanılmış şəxslərin daşınması üçün nəzərdə tutulmuşdu və dövrünün texnoloji imkanları baxımından mühüm yenilik sayılırdı. Həmin avtomobil bugünkü patrul maşınları ilə müqayisədə çox sadə olsa da, hüquq-mühafizə sahəsində texnologiyanın tətbiqinə doğru atılan mühüm addım idi.

Daxiliyanma mühərriklərinin inkişafı ilə polis avtomobilləri daha etibarlı, dayanıqlı və sürətli oldu.

Zaman keçdikcə polis avtomobilləri yalnız nəqliyyat vasitəsi olmaqdan çıxdı. Radiostansiyalar, sirenlər, xüsusi işıq siqnalları, bort kompüterləri, GPS naviqasiyası, videomüşahidə sistemləri və avtomatik nömrə tanıma texnologiyaları onları mobil xidmət mərkəzinə çevirdi.

Müasir patrul avtomobilində polis əməkdaşı hadisə barədə məlumat ala, əməliyyat qərargahı ilə fasiləsiz əlaqə saxlaya, məlumat bazalarına çıxış əldə edə və bir çox xidməti əməliyyatları birbaşa avtomobildən həyata keçirə bilir. Bu texnoloji yeniliklər həm xidmətin operativliyini, həm də əməkdaşların təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırıb.

### *Müxtəlif ölkələr, fərqli avtomobillər*

Bu gün müxtəlif ölkələrin polis qurumları xidmət xüsusiyyətlərinə uyğun fərqli nəqliyyat vasitələrindən istifadə edirlər. Böyük şəhərlərdə sürətli sedan və krossoverlərə üstünlük verildiyi halda, dağlıq və çətin relyefə malik ərazilərdə yüksək keçid qabiliyyətli yolsuzluq avtomobilləri xidmət göstərir. Bəzi ölkələrdə isə motosikletlər və elektrik skuterləri də patrul xidmətinin ayrılmaz hissəsinə çevrilib. Bu müxtəliflik göstərir ki, polis avtomobilinin seçimi yalnız sürət amili ilə deyil, xidmət göstərilən ərazinin xüsusiyyətləri və ictimai təhlükəsizliyin tələbləri ilə müəyyən edilir.

Hazırda bir çox ölkədə patrul avtomobilləri hibrid və elektrik mühərrikləri, süni intellekt əsaslı sistemlər və rəqəmsal rabitə texnologiyaları ilə təchiz olunur. Bu yeniliklər isə polis xidmətinin operativliyini və səmərəliliyini artırır.

*Aytən Tahirova*

# Süni intellektin məhkəmədə ilk qələbəsi

## İngiltərədə süni zəkanın hazırladığı müdafiə uğurla nəticələnib



İngiltərə məhkəmə sistemində ilk dəfə süni intellekt tərəfindən hazırlanmış hüquqi müdafiə uğurla nəticələnib. Süni intellekt hüquq şirkətinin hazırladığı sənədlər əsasında aparılan məhkəmə prosesində iddiaçının xeyrinə qərar verilib. İngiltərədə insan resursları üzrə müstəqil məsləhətçi kimi çalışan bir şəxs 7 min funt-sterlinq borcunu geri almaq üçün süni intellekt hüquq platformasına təxminən 400 funt sterlinq ödəyərək hüquqi xidmət alıb. Ötən ilin aprelində Vəkillərin Tənzimləmə Şurası (SRA) tərəfindən təsdiqlənən süni intellekt sistemi məhkəmə prosesinə qədər tələb olunan bütün hüquqi sənədləri və müdafiə materiallarını müstəqil şəkildə hazırlayıb. Sistem qarşı tərəfi təmsil edən peşəkar hüquq firmasının təqdim etdiyi arqumentlərə cavab hazırlayıb, dörd şahidin ifadəsi və üç saat davam edən məhkəmə iclası üçün geniş sənəd paketi tərtib edib. İşə Londondakı Vandsvort Rayon Məhkəməsində baxılıb. Məhkəmə iddiaçının xeyrinə qərar çıxararaq borcun ödənilməsinə hökm verib. Mütəxəssislər hesab edirlər ki, süni intellekt hüquqi xidmətlərin dəyərini əhəmiyyətli dərəcədə azaltmaqla məhkəmə xərclərini də azalda bilər.

İşi qazanan şəxs də bildirib ki, adi qaydada bu prosesi aparmaq həm baha başa gələr, həm də uzun və stresli olardı. Süni intellektin təqdim etdiyi hüquqi dəstək sayəsində isə o, hüquqlarını daha rahat müdafiə edə bilib.

*Fidan Məmmədova*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik